# General Qulam Yəhya Daneşani - 110 (1906-2016)
# Dil açan xatirələr, yaxud onun həyat universitetləri

## Ön söz əvəzi

Əziz oxucu, bilirik ki, general Qulam Yəhya Daneşaninin barəsində bu və ya digər dərəcədə məlumata maliksən. Çünki hər xalq özünün taleyüklü mərhələlərində odlardan-alovlardan keçən, özünü təsdiqləməyi bacaran şəxsiyyətləri az-az yetişdirdiyindən belələrinə ictimai maraq böyük olur. Onu da bilirik ki, məlumatlarınızın çoxu Qulam Yəhyanın vəfatından sonra işıq üzü görən "Xatirlər" indən uzağa getməyəcək. Bioqrafiyasının, həyat yolunun zənginliyi barəsində cild-cild kitablar qələmə alınması üçün tükənməz məxəzlərin mövcudluğuna baxmayaraq xarakterindəki tərifsevməzlik, özünün vurğuladığı kimi heç gündəlik də yazmadığı buna təsirsiz ötüşməyib.

Nə yaxşı ki, generaldan sonra 35 il Azərbaycan Demokrat Firqəsinə və İranlı Mühacirlər Cəmiyyətinə rəhbərlik edən Əmirəli Lahrudi bu xəcalət yükünü çiyinlərimizdən götürdü. Arxiv sənədlərinə, əlyazmalara istinadən Qulam Yəhyanın dil və üslub xüsusiyyətləri qorunmaqla "Xatirələr" i ərsəyə gətirdi. Yoxsa 110 illik yubileyini təntənə ilə qeyd etdiyimiz gündə necə çətin vəziyyətdə qalacağımızı təsəvvürə gətirmək çətin deyildi. Silahdaşları, "21 Azər" Hərəkatı iştirakçıları barmaqla sayılacaq qədər qaldıqlarından fundamental xatirələr, rəylər təqdimatı baxımından kəm-kəsirimiz aşkar nəzərə çarpacaqdı.

Buna görə qərara aldıq ki, iki hissəli yazımızda öncə ruhuna ehtiram əlaməti olaraq "Xatirə"dən seçmələr təqdim edək, sonra iqtibaslar vasitəsilə arada oxucularla körpü salaq.

**"Mühacir" qəzeti redaksiyası**

## KİÇİK HAŞİYƏ

Redaksiyamızda yüz ölçüb, bir biçdikdən sonra razılığa gəldik ki, nəsillərə örnək zəngin həyat və mübarizə yolu keçən Qulam Yəhya Daneşani barədə ən səmimi, real, inandırıcı sözü generaldan estafeti təhvil alan jurnalist, publisist, ictimai-siyasi xadim Əmirəli Lahrudi on il əvvəl qələmə aldığından fikirlərimiz heç də məna dərinliyinə görə bu nümunədən uzaq gedə bilməyəcək. Odur ki, onun 2010-cu ildə "General Qulam Yəhya" (1906-2006) kitabına redaktor kimi yazdığı "Giriş" i sizlərə təqdim etməyi qərara aldıq.

Tanışlıqdan sonra bunun məntiqiliyinə şübhənizin qalmayacağına tam əminik.

## ONU XATIRLAYARKƏN

Oxucuya təqdim edilən kitab Qulam Yəhya oğlu Daneşaninin (Qulam Yəhya) kiçik tərcümeyihalı ilə yanaşı onun siyasi fəaliyyətini özündə əks etdirən xatirələrdir. Həmin xatirələr Ərdəbil, Tehran zindanlarını və bu zindanlarda baş verən cinayətləri, 1941-ci ildən sonra İranda əmələ gələn demokratik dəyişiklikləri və bu dəyişikliklər nəticəsində Azərbaycan kəndlilərinin mülkədar zülmünə qarşı mübarizəsini Sarab və Miyana simasında həmin mübarizələrin geniş şərhini özündə ehtila edir. Qulam Yəhya Sarab və Miyanada kəndli hərəkatının bilavasitə iştirakçısı olmuş, Hezbe Tudeyi İranın Sarab, sonra isə Miyana təşkilatına başçılıq etmiş, 1945-ci ilin sentyabr ayında yenicə yaranan Azərbaycan Demokrat Firqəsinin sıralarına qoşulmuş, Firqənin I-ci qurultayında iştirak etmiş, Mərkəzi Təftiş Komissiyonunun üzvlüyünə seçilmis, Miyanada başlanan hərəkata rəhbərlik etmiş və hərəkatın qələbəsinə nail olmuşdur.



Miyana fədailəri 21 Azərə doğru gedən yolun ilk qalibləri kimi milli-azadlıq hərəkatı tarixində öz layiqli yerini tutmuşlar. Qulam Yəhya 21 Azər hərəkatının rəhbərlərindən biri kimi S.C.Pişəvərinin göstərişi ilə Təbrizə gəlmiş, Təbriz jandarm idarəsinin götürülməsində əsas rol oynamışdır. Qulam Yəhya milli hökumət təşkil edildikdən sonra xalq qoşunları nazirinin müavini seçilmiş, Zəncan fədailərinin rəhbərliyi S.C.Pişəvəri tərəfindən ona tapşırılmışdır. Qulam Yəhya Zəncan cəbhəsinin başçısı olduğu dövrdə Mürtəzəvi, Həsən Nəzəri və Hidayət Hatəmi ilə birlikdə Zülfüqari silahlı bandasını zərərsizləşdirmiş və Azərbaycan ərazisinə soxulmaq istəyən digər silahlı dəstələrin qarşısını almışdır. Zəncan fədailəri Azərbaycana durmadan hücum edən silahlı bandaların qarşısını almaqla yanaşı, Azərbaycan Milli Hökumətinə qarşı vuruşan mülkədarların torpaqlarını pulsuz olaraq, kəndlilərə paylamışlar. Azərbaycan Milli Hökumətinin bir illik fəaliyyəti Azərbaycanda siyasi sakitliyin yaranması, Azərbaycan dilinin rəsmi dövlət dilinə çevrilməsi prosesində Azərbaycan fədailəri, o cümlədən Zəncan fədailəri əsas rol oynamışlar. Qulam Yəhya S.C.Pişəvərinin silahdaşlarından biri idi. O, bacarıqlı, ləyaqətli siyasi və ictimai xadim kimi təkcə Zəncan cəbhəsində deyil, Ərdəbil və Urmiyyə şəhərlərində də fəaliyyət göstərən fədailərlə də vaxtaşırı görüşür və Zəncan cəbhəsində gedən döyüşlər haqqında onlara məlumat verirdi. Tehran-Təbriz sazişinə əsasən Zəncan Tehrana təhvil verildi. Bununla əlaqədar Miyana şəhəri fədailərin mərkəzinə çevrildi 1946-cı ilin dekabr ayının 10-na qədər şah qoşunlarına qarşı müqavimət göstərdi, lakin Təbrizdən bütün cəbhələrə göndərilən göstəriş əsasında Miyana fədailəri də müqavimət göstərmədən geri oturdu.

Qulam Yəhyanin mühacirət illərində də Azərbaycan Demokrat Firqəsinin görkəmli rəhbərlərindən biri kimi Firqənin ehya edilməsində xidməti olmuş və çoxsaylı mühacirlərin Azərbaycan respublikasında yerləşdirilməsini öz üzərinə götürmüşdür. Elə buna görə də Qulam Yəhya mühacirlər arasında tanınmış şəxsiyyət kimi Firqənin yüksək rəhbər mövqelərindən birini tutmuş, 1958-ci ildən firqənin sədri seçilmiş, 1979-cu ilə qədər həmin vəzifədə çalışmış, ömrünün sonuna qədər firqənin iftixari sədri olmuşdur. Qulam Yəhya Azərbaycan Demokrat Firqəsinin böhranlı günlərində firqəyə qarşı çıxış edən müxtəlif cərəyanlara qarşı mübarizə aparmış, Hezbe Tudeyi İranla Azərbaycan Demokrat Firqəsinin birləşməsi zamanı firqənin adının saxlanılmasında prinsipial mövqe tutmuş, Vəhdət konfransında Hezbe Tudeyi İranın Mərkəzi Komitəsinin İcraiyyə Heyətinin üzvü seçilmiş, Hezbe Tudeyi İranın XVI konfransında Nurəddin Kiyanurinin birinci katib seçilməsinin təşəbbüskarlarından biri olmuşdur.

Qulam Yəhyanın xatirələrinin oxucuları səhifələr deyil, sətirlər arasında onun prinsipiallığı, üzv olduğu partiyaya inamı, milli azadlıq və demokratiya uğrunda gedən mübarizədə fəal iştirakı ilə tanış olacaqdır.

## XATİRƏLƏRDƏN SEÇMƏLƏR

Ümumiyyətlə, həyatda adi adamların yaşadığı dövr üçün müəyyən xatirələri olur. Belə xatirələr insanların həyatları kimi də müxtəlif olur. Bəziləri keçmişini yada salmaqla sevinir və bəziləri də keçmişlərini yada saldıqca xəcalət çəkir.

Müasir dövrdə, yeni müxtəlif sistemlərin, müxtəlif quruluşların, müxtəlif sinif və təbəqələrin, müxtəlif əqidə və səliqələrin mövcud olduğu dövrdə ümumiyyətlə, "yaxşı adam" olmaq, hamının istəklisi olmaq, hamının xoşuna gəlmək, hamı üçün müsbət şəxs olmaq mümkün deyildir.




Mənim xatirələrimə gəldikdə, deməliyəm ki, onların əksəriyyəti təşkilati işlər, Vətənimizdə baş verən hadisələr, ölkəmizin tarixi və xalqımızın nailiyyətləri ilə əlaqədar olan hadisələri bir daha yada salmaq, müəyyən hadisə və tədbirlərin mümkün qədər mahiyyət və məqsədlərini aydınlaşdırmaq, izah etmək, xüsusilə, cavan nəsil üçün keçmişlərdən söhbət açmaq, hadisələrin səbəb və nəticələrini aydınlaşdırmaq məqsədi güdür. Onu da deyim ki, mən heç vaxt gündəlik yazmamışam və belə bir iş görmək fikrində də heç vaxt olmamışam. Onu da deyim ki, belə bir iş üçün imkanım da olmamışdır.

Mən Daneşiani Qulam Yəhya oğlu 1906-cı ildə Sarab mahalının Əskərabad (Əsgəvar) kəndində yoxsul kəndli ailəsində anadan olmuşam.

Ailəmizdə məndən başqa iki qardaşım və üç bacım olmuşdur. Qardaşlar erkən ölmüş, (onlar atamla o zaman Rusiyaya gəlmiş və oradaca ölmüşlər) bacılarım kənddə ailə qurub orada qalmışlar.

Atamın dediyinə görə babamın vəfatından sonra onun borclarını ödəmək və ailəyə çörək pulu əldə etmək məqsədilə Bakıya gəlmiş, oradan da Rusiyanın başqa yerlərinə işləməyə getmişdir.

Atam, ümumiyyətlə, savadsız olsa da, ömrünün 60 ilini fəhləlikdə keçirdiyi üçün bir növ fəhlə qazanında qaynayıb, siyasi cəhətdən özünə görə yetişməsində böyük rolu olmuşdur. O, ömrünün 102 ilinin (1862-1964) 75 ilinə qədərini daim zəhmətdə keçirmişdir.

Mən uşaqlıq dövrümü kənddə keçirib, 1918-ci ildə anamla birlikdə Bakıya atamın yanına gəlmişəm. O zaman atam Balaxanı neft mədənlərində fəhlə işləyirdi. Atam düzlüyü, qayğıkeşliyi və zəhmətkeşliyinə görə həm fəhlələr, həm də iş yoldaşları arasında böyük hörmətə malik idi.

1920-ci ildə çilingər şagirdi işləməklə 14 yaşından əmək fəaliyyətinə başladım və bir qədərdən sonra çilingər işləməyə və bu vaxtlardan da axşam fəhlə gənclər məktəbinə daxil olub, oxumağa başladım...

***

Mən zindanda "həkimlik" edərkən Bakıdan gəlmiş bir feldşer "mənim əlim altında" işləyirdi. Mən xəstələri müayinə edib xəstəliklərini müəyyən etdikdən sonra müalicələrin "müavinimə" həvalə edirdim. Bizə təkcə məhbuslar deyil, eyni zamanda həbsxana işçiləri, o cümlədən, əfsərlər də müraciət edirdilər...

***

Atam Ərdəbildə mənimlə görüşən günü mən növbəti "kötək seansını" qəbul etdiyim üçün halım yaxşı deyildi və çalışırdım ki, bu vəziyyəti atam hiss etməsin. Görüş otağında atam mənə təklif edirdi ki, onlarla bir qədər oturum. Lakin o, bilmirdi ki, mən hələ bir ay da bundan sonra yerə otura bilməyəcəyəm.

"Belə "seanslar" tez-tez olur və hər seansdan sonra bu işlərin "ustaları" yumurta sarısı, döyülmüş ət və sairə ilə müalicəyə başlayırdılar.

***

Kənddə müəyyən işlə başımı qarışdırmaq məqsədilə atam və başqa qohumlarımızın birgə səyləri nəticəsində bir kənd dükanı acdılar ki, mən orada yavaş-yavaş alverlə məşqul olum. Mən alver etməyi bacarmadığım üçün tez bir zamanda dükanın "mayası" yox oldu...

***

Burada fəhlələr çox ağır vəziyyətdə işləyirdilər, aldığı azacıq əmək haqqı ilə özünü dolandırmaqdan əlavə ailəsinə də müəyyən miqdar pul gətirməli idi. Ağır şərait, az yemək, səhiyyəsizlik və başqa bu kimi səbəblər üzündən xəstələnənlərin, xüsusilə maleriya xəstəliyinə tutulanların sayı getdikcə çoxalır və ölənlərin sayı daim artırdı...

***

Müttəfiq qoşunlarının İrana daxil olması ilə əlaqədar bütün yoldaşlara, o cümlədən bizim Sarabdakı yoldaşlarımızın açıq fəaliyyəti üçün imkan yaranmış oldu. Bir sözlə təşkilat heç şeydən çəkinmədən açıq fəaliyyət etməyə başladı.

***

Müttəfiq qoşunları İrana gələrkən, İran ordusu geri çəkilməyə məcbur olarkən silahlarının bir hissəsi kəndlilərin əlinə keçmişdi. Doğrudur, bu silahın bir hissəsi də İran irticai, o cümlədən kənd

# General Qulam Yəhya Daneşani - 110 (1906-2016)

# Dil açan xatirələr, yaxud onun həyat universitetləri



feodal mülkədar, xan və bəylərinin əlinə keçmişdi.

Sarab kəndlərindən Nərmi, Ağmiyan - Səhra, Ardalan, Suma və başqa kəndlərdə kəndlilər öz zülmkarları ilə vuruşarkən qonşu kəndlərdən də onların köməyinə gəlirdilər...

***

Mənim yadımda qalan mühüm hadisələrdən biri də Stalinqrad alman faşistləri tərəfindən mühasirə olunan zaman kəndlilərdən xeyli adam bizə müraciət edib, onların sovet ordularına kömək etmək məqsədilə Stalinqrad vuruşmasında iştirak etmələri üçün şərait yaratmağımızı xahiş etmələri idi...

***

Mən onların sifarişləri əsasında Sarab komendantının yanına getdim. Orada bir nəfər mayorla görüşdük.

Mən onun təkidinə cavab olaraq dedim ki, kəndlilər silah götürüb, öz zülmkarlarına qarşı vuruşmalarının bir səbəbi də sizin yazdığınız şerlərdir.

O, mənə dedi ki, mən şairəm. Ona görə də, şeir yazıram. Mən dedim ki, siz şairsiniz şeir yazıb xalqı azadlığa, əmin-amanlığa, müstəqilliyə dəvət edərsiniz, onlar da inqilabçılardılar. Sizin dediklərinizi əməldə həyata keçirirlər.

Mənim Süleyman Rüstəm ilə söhbətim çox səmimi və mehriban keçdi. Onunla mehribanlıqla görüşüb ayrıldıq...

***

Mənim Tehrandan Ərdəbilə gedənə qədər yolda başımıza gələn hadisələr, xüsusilə Qəsr-Qacarda qaldığım müddətdə gördüyüm hadisələr, şahidi olduğum faciələr haqda kitablar yazmaq olar. Hələlik buna imkan yoxdur.

Çünki mən Sarabda həbs edilib, Tehrana aparılandan sonra belə şayiə yayılmışdır ki, guya məni yolda öldürüblər. Hətta bu hadisəni "gözü il görən şahidlər də tapılıblar"...

Bu zaman Xəmsə mahalının ən böyük feodalı Zülfüqari və Seyid Ziyaiddin vasitəsilə Zəncanda yaradılmış xeyriyyə təşkilatına bütün irticai qüvvələrlə yanaşı polis və jandarm yaxından kömək edirdilər.

Az müddət içərisində Miyana təşkilatı xeyli qüvvətləndi və nüfuzu durmadan artmağa başladı. Cavanların öz qüvvəsilə təşkil edilmiş klubda gözəl tamaşalar verilməyə başladı. Bu tamaşaları, bu işə həvəsi olan özfəaliyyət qrupları təşkil edirdilər...

***

Belə qərara gəldik ki, mən, Abbasəli Pənbeyi və Sadiqi Məmiqulu həmin kəndə gedək. Yolda kəndlilər bizə xəbər verdilər ki, əgər biz kəndə getmək istəsək onlar belə qərara gəliblər ki, hizb tərəfindən kimlər gəlsə öldürsünlər.



Mən yoldaşlara təklif etdim ki, indi ki vəziyyət belə gərgin hal almışdır, onlar qayıdıb getsinlər, mən tək gedim. Mən dedim ki, əgər mən getməsəm onda onlar deyərlər ki, biz qorxduq və sonra bütün kəndlərdə təşkilatları bu hala salıb, bağlayarlar... Mən nə qədər təkid etdimsə, yoldaşlar məndən ayrılmadılar.

Kəndə yaxınlaşanda çoxlu adam gördük, təqribən məsələ aydın idi. Mən Sadiqi Məmiquluya və bizə xəbər gətirən adama dedim ki, siz kəndin yaxınlığında olan təpənin üstünə çıxın və oradan bizə nəzarət edin, bizim başımıza nə hadisə gəlsə sonradan siz gedib, xəbər verərsiz. Onlar razı olmadılar və bizdən ayrılmaq istəmədilər. Mən işi belə gördükdə, hizbin məsulu kimi onlara əmr etdim ki, mənim dediyim kimi etsinlər. Beləliklə, onlar yarımixtiyari təpəyə tərəf yollandılar və gedib orada gizləndilər. Bu zaman başda Ənsari olmaqla bizim üzərimizə 200 nəfərdən çox adam hücum etdi. Bizi o qədər vurdular ki, axır tərpənməyə belə halımız qalmadı. Bu halda mənim başımın qanı axa-axa, məni bir nəfər tutub oturtdu, çün özüm otura bilmirdim. Başımdan axan qan qözümün birini tutduğu üçün mən ancaq bir gözümlə görürdüm. Bu zaman Ənsari mənə tərəf əyilib, məndən soruşdu ki, indi çıxıb öz yerinə gedərsən? Cavab verdim ki, yox! O bir də istehza ilə soruşdu ki, niyə qayıtmırsan. Bunu deməkdə məqsədi o idi ki, artıq ölürsən. Ona görə də "qayıdıb, qayıtmamağıvın" əhəmiyyəti yoxdur. Mən yenidən cavab verdim ki, qayıtmayacağam. Ona görə ki, hələ mübarizəmiz qurtarmayıbdır. O, bir də mənə baxıb, bütün gücü ilə bir sillə vürub əmr etdi ki, bizi diri-diri basdırsınlar, izimiz də tapılmasın. Bu zaman hiss etdim ki, mənim kimsə xəncərlə başımı kəsmək istəyir və mən çənəmi-döşümə tərəf sıxdım. Ona görə də xəncər mənim nəfəs boruma yetişmədi. Hər halda boğazımın xeyli hissəsi kəsilmişdir. Oradakılar bizi, yəni mənlə Pənbəyini diri-diri qəbrə basdırdılar. Ənsarigil bir qədər uzaqlaşan kimi, təpədə gizlənənlər gəlib, bizi "qəbrdən" çıxardılar. Bizim qəbrdən çıxardılmağımıza Ənsarinin dəstəsindən olan kəndlilər də kömək etmişdilər. Biz yeriyə bilmədiyimiz üçün gedib, qonşu kənddən tabut gətirib, bizi diri-diri tabuta qoyub, çiyinlərində qonşu kəndə apardılar. Həmin kənddən Miyanaya xəbər göndərib, hizbi yoldaşlara bu hadisə haqqında xəbər vermişdilər. Yoldaşlar gələnə qədər bizə kənddə "ilk yardım" göstərildi. Bizim yaralarımızı "yağlı qara" ilə bağladıqdan sonra, bizə cəftə suyu da içirmişlər ki, qorxu bizdən getsin. Sonra bizim axan qanımızın yerini "doldurmaq" üçün əridilmiş kərə yağı içirtdilər. Mənim xəbərim olmayıb, deyilənlərə görə bizim qəhrəmanlığımıza "göz dəyməsin" deyə bizə üzərlik də yandırıblar. Yəqin ki, onun "Üzərliksənhavasan, hazar dərdə davasan" sözlərilə başlayan mahnısını da oxuyublar...

***

1945-ci ilin əvvəllərində Təbriz əyaləti komitəsinin qərarı üzrə mənim Miyanadan götürülüb, Təbrizə gəlməyim məsləhət görüldü. Bu xəbər Miyana təşkilatına çatan kimi yoldaşlar mənim Miyanadan getməyimə razılıq vermədilər və əyaləti komitədən xahiş etdilər ki, mənim Təbrizə aparılmağım haqqında qərarda təcdid-nəzər edilsin.

İşdən xəbər tutan Hacı Etişamın göstərişilə bizi gülləyə basdılar və üç yoldaşımıza güllə dəydi. Biz kəndə girib, Hacı Ehtişamı və onun dəstəsindən 10 nəfəri tutduq və qalanları qaçdılar. Hacı Ehtişami və iki nəfər başqası oradaca güllələndilər. Qalan 7 nəfərini Təbrizə gətirdik...

***

Mənim yadımda qalan müsbət hadisələrdən biri də istər Miyana və istərsə Sarab jandarm postlarının alınmasında heç bir xoşagəlməz hadisənin baş verməməsidir.

Miyana alınandan sonra ilk növbədə tacirləri toplayıb, onlarla söhbət etdik və hamısını xətircəm etdik ki, heç kəsin onlarla heç bir işi olmayacaq, bizim də xahiş və tələbimiz ondan ibarətdir ki, mümkün qədər tez öz işlərinə başlayıb, alverlərini etsinlər. Bu razılaşdığımız kimi də oldu. Razılaşmanın ikinci və üçüncü günü həyat öz qaydasında cərəyan etməyə başladı...

***

Nəhayət mən tək Təbrizə gedib, Pişəvərilə görüşdüm. Onunla xeyli söhbət etdik, onu bizim vəziyyətimiz hərtərəfi maraqlandırırdı.

Sərbazlara təklif olundu ki, kim öz xalqının zülmdən azad edilməsində bilavasitə iştirak etmək istəsə qalıb fədailər sırasında xidmət edə bilər. Əgər biri evləri üçün tələsirsə, evlərinə gedə bilər. Kim necə istəsə elə edə bilər. Beləliklə, sərbazxana sərbazlardan boşalıb, fədai başçılarına təhvil verildi...

***

Çünki hər adam anadan olanda qəhrəman və qorxmaz doğulmur. Onu sonradan yaşadığı mühit yetirir...

Demək istədiyim mühüm hadisələrdən biri də Mərkəzi Tehran hökumətinin bizim əleyhimizə bütün vasitələrə əl atmasından nümunə kimi göstərmək məqsədilə köçəri tayfa bəylərinin bir iddəsini milli hökumət əleyhinə qaldırması hadisəsini qeyd etməkdir.

Fədai başçıları və qoşun əfsərləri ilə söhbət etdim, hərənin öz vəzifəsini müəyyən etdik. Bir neçə günə qaçaqlar Ərdəbil mahalından, daha doğrusu, Azərbaycandan qovuldular. Onlar Ərdəbil mahalından gedib, Talış mahalında qüvvə toplamağa başladılar.

Mənim forvi Təbrizə çağrılmağımın səbəbini Pişəvərinin qısaca şərh etməsindən məlum oldu ki, düşmən bu dəfə azərbaycanlı-kürd qırğını salmağa hazırlaşır. Pişəvərinin göstərəşinə əsasən Urmiyəyə hərəkət etməli oldum.

***

Düşmən təlafata uğradı, ölən və yaranlardan başqa 12 nəfər də əsir alındı. Mən fədailərə belə qəhrəmanlıqları müqabilində ən qiymətli mükafat kimi Pişəvərinin salamını yetirdim. Bu da yoldaşların böyük ruh yüksəkliyinə səbəb oldu. Mən Pişəvərinin göstərişinə əməl edərək, firqənin ildönümü münasibətilə hər fədaiyə 5 tümənlik şirni bayramlıq verilməsi barədə göstəriş verdim...

***

Onlar mənim hərəkətimdən hiss etdilər ki, mənim belə "razılaşmaları" Azərbaycanda "azad" seçki keçirilməsi və buna oxşar söhbətləri eşitməyə həvəsim yoxdur...

***

Səhər saat 6-da fədailər Təbrizə çatdılar. Artıq vəziyyət aydın idi. Biz Təbrizdən çıxıb, harasa getməli idik. Təbrizdə qalmaq olmazdı. Mən fədailərlə görüşdüm və istədim ki, vəziyyət haqqında onlara qısaca məlumat verim. Bunu edə bilmədim. Boğazım qəhərləndi.

21 Azərin günü səhər saat 8-də Təbrizdən Mərəndə tərəf hərəkət etdik. Biz Culfa körpüsünə çatarkən bəzilərinin özlərinin və ailələrinin orada dayandıqlarını gördüm və xəbər verdilər ki, mənim və ailəmin keçməsinə icazə verilmişdir. Mən dedim ki, buraya toplaşanların hamısı körpüdən keçməyənə qədər mən o taya keçmək fikrində belə olmayacağam.

Bir qədərdən sonra hamıya körpünü keçmək icazəsi verildi...

